

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 103 (21.764)

*1 iyun 2017-ci il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 31-də Bakı Sərgi Mərkəzində XXIV Beynəlxalq "Xəzər Neft və Qaz-2017" sərgi və konfransının, həmçinin VII Xəzər Beynəlxalq energetika və alternativ enerji sərgisinin açılışında iştirak ediblər.

Xəzəryanı regionda energetika sektorunun ən əhəmiyyətli tədbiri olan XXIV Beynəlxalq "Xəzər Neft və Qaz-2017" sərgisi Azərbaycanın Energetika Nazirliyinin və Dövlət Neft Şirkətinin - SOCAR-ın dəstəyi, "ITECA Caspian" və "ITE Group" şirkətlərinin təşkilatçılığı ilə keçirilir. Bu il sərgidə dünyanın 30 ölkəsini təmsil edən 300-dək şirkət iştirak edir. Onların arasında Azərbaycan, ABŞ, Belarus, Belçika, İspaniya, İtaliya, Qazaxıstan, Çin, Niderland Krallığı, Polşa, Yaponiya və digər ölkələr var.

Dövlətimizin başçısı tədbirdə nitq söyləyib.

Sərgilərlə tanış olduqdan sonra Prezident İlham Əliyev sərgi və konfransın xatirə kitabını imzalayıb.

* * *

Mayın 31-də Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi donanmasının "Qubadlı" və "Cəbrayıl" adlı yeni təchizat gəmilərinin istismara verilməsi mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 31-də ABŞ dövlət katibinin enerji diplomatiyası üzrə köməkçisinin müavini xanım Robin Danniqanı qəbul edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 31-də Bakıda keçirilən yüksək səviyyəli rəsmi statistiklər üçün Dayanıqlı İnkişaf Məqsədləri üzrə məlumat və statistikaya dair subregional seminarın və Azərbaycanın sədrliyi ilə Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Statistika Xidmətləri Rəhbərləri Şurasının 57-ci iclasında iştirak edən yüksək səviyyəli rəsmi qonaqları qəbul edib.

## Naxçıvanda futbol üzrə "Heydər Əliyev kuboku" uğrunda turnir başa çatıb





Naxçıvanda ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş futbol üzrə "Heydər Əliyev kuboku" uğrunda turnir keçirilib. Mayın 26-da start götürən və dairəvi sistem üzrə keçirilən turnirdə "Araz-Naxçıvan", "Mil-Muğan", "Mərkəzi Ordu İdman Klubu" və "Zaqatala" komandaları mübarizə aparıblar.

Mayın 30-da Naxçıvan Muxtar Respublika Stadionunda "Araz-Naxçıvan" və "Mərkəzi Ordu İdman Klubu" arasında futbol üzrə "Heydər Əliyev kuboku"nun son turunun görüşü keçirilib.

Yarışdan əvvəl Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və rəqs ansamblının, eləcə də müğənnilərdən Sevinc və Sevil Səfərovaların ifasında konsert proqramı olub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov turnirin son oyununu izləyib.

Gərgin idman mübarizəsi və dostluq şəraitində keçən oyun "Mərkəzi Ordu İdman Klubu"nun 1:0 hesablı qələbəsi ilə başa çatıb və komanda futbol üzrə "Heydər Əliyev kuboku" uğrunda keçirilən turnirin qalibi olub. "Mil-Muğan" komandası turnirdə ikinci yerə, "Araz-Naxçıvan" isə üçüncü yerə çıxıb.

Oyundan sonra mükafatlandırma mərasimi keçirilib.

Əvvəlcə turnirdə oyunları idarə edən hakimlərə mükafatlar verilib, turnirin təşkilində xidmətlərinə görə Peşəkar Futbol Liqasının prezidenti Ramin Musayevə isə xatirə hədiyyəsi təqdim olunub. Oyunların nəticələrinə görə "Ən yaxşı gənc futbolçu", "Ən məhsuldar futbolçu", "Ən yaxşı qapıçı" və "Ən yaxşı futbolçu" nominasiyalarında mükafatlar verilib.

Sonra ikinci yerə çıxan "Mil-Muğan" komandasına gümüş, üçüncü yerin sahibi "Araz-Naxçıvan" komandasına isə bürünc medallar təqdim edilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov futbol üzrə "Heydər Əliyev kuboku" uğrunda keçirilən turnirin qalibi olan "Mərkəzi Ordu İdman Klubu"na qızıl medalları və kuboku təqdim edib.

Ali Məclisin Sədri turnirdə mübarizə aparan komandaların oyunçuları ilə görüşüb, onlara təşəkkürünü bildirib və komandalarla xatirə şəkli çəkdirib.





**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Dövlət Miqrasiya Xidmətinin yaradılmasının ildönümü qeyd edilib

***Mayın 31-də Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin yaradılmasının 7-ci ildönümü münasibətilə tədbir keçirilib.***

Əvvəlcə tədbir iştirakçıları müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül dəstələri düzüb, ulu öndərin xatirəsini dərin ehtiramla yad ediblər. Sonra tədbir iştirakçıları Heydər Əliyev Muzeyinə gələrək ümummilli liderimizin həyatını və çoxşaxəli dövlətçilik fəaliyyətini əks etdirən eksponatlara baxıblar.

Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətində keçirilən tədbirdə xidmətin rəisi, miqrasiya xidməti müşaviri Şahin Nəbiyev çıxış edərək bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2010-cu il 31 may tarixli Fərmanına əsasən Naxçıvan Muxtar Respublikasının Dövlət Miqrasiya Xidməti yaradılıb. Bu gün muxtar respublikada bütün sahələrlə yanaşı, miqrasiya sisteminin inkişafına da diqqət və qayğı göstərilir. Xidmətin müasir standartlara cavab verən inzibati binası istifadəyə verilib. Görülən işlərin nəticəsidir ki, muxtar respublikada miqrasiya prosesləri qanunun tələblərinə uyğun həyata keçirilir. Xidmət ötən dövrdə fəaliyyətini muxtar respublika ərazisində miqrasiya proseslərinin tənzimlənməsi, onların uçotunun aparılması, miqrasiya siyasətinin həyata keçirilməsi istiqamətində qurub. Azərbaycan Respublikasının ərazisində müvəqqəti və daimi yaşamaq, həmçinin muxtar respublika ərazisində haqqıödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün iş icazələrinin verilməsi, vətəndaşlıq mənsubiyyətinin və qaçqınlıq statusunun müəyyənləşdirilməsi, eyni zamanda müvəqqəti olma müddətinin uzadılması ilə bağlı Dövlət Miqrasiya Xidmətinə daxil olmuş müraciətlərin hər biri ayrı-ayrılıqda qanunvericiliyin tələblərinə uyğun araşdırılaraq müvafiq qərarlar qəbul edilib.

Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin rəisi, II dərəcəli dövlət miqrasiya xidməti müşaviri Firudin Nəbiyev tədbirdə çıxış edərək xidmət əməkdaşlarını təbrik edib, onlara gələcək işlərində uğurlar arzulayıb. Firudin Nəbiyev qeyd edib ki, ölkəmizin sosial-iqtisadi inkişafı, geosiyasi mövqeyi, insan hüquq və azadlıqlarının qorunması sahəsində görülən işlər dünyanın müxtəlif yerlərindən Azərbaycana miqrasiya edənlərin sayının artmasına səbəb olub. Bu gün Azərbaycan xarici investorlar üçün cəlbedici ölkəyə çevrilib və miqrasiya prosesləri dinamik xarakter alıb. Bütün bunlar nəzərə alınaraq ölkəmizdə Dövlət Miqrasiya Xidməti yaradılıb və bu sahədə qanunvericilik bazası formalaşdırılıb. Artıq ölkəmizdə, eləcə də muxtar respublikada bu sahədə müasir informasiya texnologiyaları tətbiq olunur, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin, eləcə də Azərbaycan Respublikası vətəndaşlarının xidmətə



elektron qaydada müraciət imkanı yaradılır. Ötən 7 ildə Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin formalaşdırılması, müasir tələblərə cavab verən bina ilə təmin edilməsi, qanunvericilik bazasının yaradılması və təkmilləşdirilməsi sahəsində görülən tədbirlər mühüm əhəmiyyətə malikdir. Bu, bir daha Azərbaycan dövlətçiliyinin möhkəm təməllər üzərində qurulduğunu təsdiq edir. Artıq yaradılmasından qısa müddət keçməsinə baxmayaraq, Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidməti qarşıda duran vəzifələri uğurla icra edir, bu sahədə çalışan əməkdaşlar dövlətin mənafeyini etibarlı şəkildə qoruyur, eyni zamanda əcnəbi vətəndaşların muxtar respublikada qanuni fəaliyyətini təmin edirlər.

Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-mayor Fazil Ələkbərov kollektivi təbrik edərək deyib ki, Naxçıvan uzun illərdir blokada şəraitində yaşayır. Ona görə də muxtar respublikaya miqrantların gəlməsi təəccüblü görünə bilər. Lakin bugünkü reallıq ondan ibarətdir ki, Azərbaycanın iqtisadi inkişafı fonunda çiçəklənən Naxçıvan Muxtar Respublikasına qonşu ölkələrdən gələn miqrantların sayı ilbəil artır. Bu da Naxçıvanda miqrasiya tədbirlərinin həyata keçirilməsini zəruri edib. Bu gün dünyada baş verən proseslər, bəzi ölkələrdə terror hadisələrinin törədilməsi bu sahədə ciddi tədbirlərin həyata keçirilməsini, xüsusilə də miqrasiya proseslərinə nəzarətin artırılmasını zəruri edir. Ölkəmizdə bu sahə üzrə qəbul edilmiş qanunvericilik bazası muxtar respublikada da miqrasiya sahəsində qarşıya qoyulan vəzifələrin hüquqi qaydada həyata keçirilməsinə təminat verir. Fazil Ələkbərov miqrasiya xidməti əməkdaşlarının bundan sonra da öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirəcəklərinə, muxtar respublikada miqrasiya proseslərinin idarə olunması sahəsində qanunvericiliyin tələblərinə uyğun fəaliyyət göstərəcəklərinə əminliyini bildirib.

Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin rəisi, II dərəcəli dövlət miqrasiya xidməti müşaviri Firudin Nəbiyev və Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin Baş idarə rəisi, baş miqrasiya xidməti müşaviri Rza Talıbov miqrasiya orqanlarının fəaliyyətinin təşkilində, inkişafında və möhkəmləndirilməsində xüsusi xidmətləri olan, vəzifələrini nümunəvi yerinə yetirən, qulluqda yüksək nəticələr əldə edən muxtar respublika Dövlət Miqrasiya Xidmətinin bir qrup əməkdaşına "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin 10 illiyi (2007-2017)" yubiley medalını təqdim ediblər.

Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-mayor Fazil Ələkbərova "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin 10 illiyi (2007-2017)" yubiley medalı təqdim olunub.

Səmərəli fəaliyyətlərinə görə bir qrup əməkdaşa fəxri fərman və qiymətli hədiyyələr, bir qrup əməkdaşa isə xüsusi rütbələr verilib.

Tədbir iştirakçıları Naxçıvan Dövlət Televiziyasında hazırlanan "Miqrasiya siyasəti: idarəetmə və inkişaf" filminə baxıblar.

Sonda xatirə şəkli çəkdirilib.

**"Şərq qapısı"**

# "Naxçıvanın turizm potensialının tanıdılmasında medianın rolu" mövzusunda konfrans keçirilib

***Mayın 31-də Azərbaycan Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) təşkilatçılığı ilə ölkəmizin aparıcı media nümayəndələri muxtar respublikaya səfər ediblər.***





Qonaqlar xalqımızın ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı ulu öndər Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində əzəmətlə ucalan abidəsini ziyarət edib, Heydər Əliyev Muzeyi ilə tanış olublar. Burada media nümayəndələrinə görkəmli dövlət xadimi Heydər Əliyevin ictimai-siyasi fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən eksponatlar barədə ətraflı məlumat verilib.

Həmin gün Azərbaycan Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun təşkilatçılığı ilə Naxçıvan Dövlət Universitetində "Naxçıvanın turizm potensialının tanıdılmasında medianın rolu" mövzusunda konfrans keçirilib.

Konfransın iştirakçıları əvvəlcə universitetdə fəaliyyət göstərən Media Mərkəzi ilə tanış olublar. Bildirilib ki, Naxçıvan Dövlət Universitetinin Media Mərkəzi ən müasir texnoloji avadanlıqlarla təchiz olunub və burada gələcəyin peşəkar jurnalistlərinin yetişməsi üçün hər cür şərait mövcuddur. Qonaqlara Universitet televiziyası, "Nuhçıxan" radiosu və mətbuat şöbəsi, həmçinin universitetin "Yeni fikir" qəzetinin fəaliyyəti barədə məlumat verilib. Media nümayəndələri müxtəlif radio və televiziya verilişlərinin, xəbərlərin hazırlanması, açıq dərslərin yazılması proseslərini izləyiblər.

Ölkəmizdə fəaliyyət göstərən aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri, muxtar respublikanın media orqanlarının əməkdaşları, eləcə də Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisasının tələbələrinin iştirakı ilə keçirilən konfransı universitetin tədris işləri üzrə prorektoru, dosent Surə Seyid açıb.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli ölkənin aparıcı media rəhbərlərinin Naxçıvana səfərinin sayca ikinci olduğunu xatırladıb. O qeyd edib ki, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası böyük turizm potensialına malikdir. Qədim tarixə, zəngin mədəniyyətə, gözəl təbiətə malik olması müasir dövrdə Naxçıvanı turistlər üçün daha cəlbedici edir. Buna görə də qədim diyarın turizm potensialının tanıdılmasında kütləvi informasiya vasitələrinin üzərinə böyük iş düşür. Konfransın keçirilməsində əsas məqsəd də ölkəmizin aparıcı kütləvi informasiya vasitələrində Naxçıvanın məhz bu istiqamətdə tanıdılmasına, təbliğ edilməsinə töhfə verməkdən ibarətdir.

Naxçıvan Dövlət Universitetinin Jurnalistika və dünya ədəbiyyatı kafedrasının müdiri Şəhla Şirəliyeva çıxışında bildirib ki, muxtar respublikada jurnalist kadrların hazırlanmasında bu ali təhsil ocağının rolu böyükdür. Bu il 50 illik yubileyini qeyd edən universitetdə Media Mərkəzi, televiziya, "Yeni fikir" qəzeti, "Nuhçıxan" radiosu fəaliyyət göstərir. Jurnalistika ixtisasında təhsil alan tələbələr yaradılmış bu şəraitdən istifadə edərək bilik və bacarıqlarını daha da təkmilləşdirirlər. Bundan əlavə, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixdə "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" imzaladığı Sərəncama uyğun olaraq tələbə jurnalistlərin Naxçıvan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində, "Şərq qapısı" qəzetində təcrübə keçmələri, eləcə də bu orqanlarla əməkdaşlıq etmələri təmin olunub. Qeyd edilib ki, muxtar respublikanın turizm potensialının tanıdılmasında medianın rolu danılmazdır. Bu baxımdan digər sahələrdə olduğu kimi, jurnalistika sahəsində də peşəkar kadrların hazırlığı önəmli məsələlərdəndir.

"Şərq qapısı" qəzetinin əməkdaşı, iqtisad üzrə fəlsəfə doktoru Əli Cabbarov çıxışında bildirib ki, Naxçıvan Muxtar Respublikası ölkəmizin mühüm turizm mərkəzlərindəndir. Hazırda il ərzində 400 mindən artıq turistin səyahət etdiyi Naxçıvanın turizm potensialından bəhrə götürmək üçün təbliğat mexanizminin də səmərəli olması mühüm amildir. Bu baxımdan məhz məqsədyönlü şəkildə həyata keçirilən təbliğat vasitəsilə bu gün turizmdən əldə olunan nəticələri dəfələrlə yaxşılaşdıra bilərik. Son illərdə Naxçıvanın turizm potensialının təbliği ilə bağlı ölkə mətbuatında, eləcə də Türkiyə, ABŞ, Rusiya, Birləşmiş Ərəb Əmirliklərinin nüfuzlu mətbuat orqanlarında çox sayda elmi və publisistik məqalələr dərc edilib. Təkcə son 3 il ərzində "Şərq qapısı" qəzetində Naxçıvanın turizm potensialı ilə bağlı 70-ə yaxın məqalə oxuculara təqdim olunub. Bu məqalələr qəzetin internet saytında ayrıca "Turizm" bölməsində yerləşdirilib. Bunlar arasında Naxçıvanın turizm marşrutları, kənd turizm və ekoturizm məkanları, tanışlıq dəyəri kəsb edən qədim tarixi abidələri, milli mətbəx və qonaqpərvərlik elementləri, habelə yaradılmış turizm infrastrukturu müəssisələri haqqında yazılar üstünlük təşkil edir. Bundan əlavə, qəzetin saytının ingilis dili bölümündə də "Turizm" və "Naxçıvan xarici qonaqların gözü ilə" başlıqları altında xeyli sayda materiallar, Naxçıvana səfər edən nüfuzlu qonaqların təəssüratları yerləşdirilib. Naxçıvanın turizm potensialının tanıdılmasında Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsi tərəfindən də xeyli işlər görülüb. Belə ki, təkcə ötən il Naxçıvan Dövlət Televiziyasında bu mövzuda 57 veriliş, 13 film, kəndlərin sosial həyatını əks etdirən 11 teleetüd və muxtar respublikanın turizm potensialını əks etdirən 11 videoçarx, 200-ə yaxın süjet efirə təqdim edilib. Bu dövrdə Naxçıvan Dövlət Radiosunda da turizmə aid 70-dən artıq veriliş hazırlanıb, bu işlər hazırda da davam etdirilir. Əli Cabbarov qeyd edib ki, konfransda ölkəmizin mötəbər media nümayəndələri rəhbərlərinin iştirakı onu deməyə əsas verir ki, gələcəkdə Naxçıvanın turizm potensialının tanıdılmasında və təbliğində kütləvi informasiya vasitələrinin imkanlarından geniş istifadə olunacaqdır.

Konfransda "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, "Palitra" qəzetinin baş redaktoru Namiq Əliyev, "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev, "APA-Holdinq"in prezidenti Vüsalə Mahirqızı, Naxçıvan Muxtar Respublikası Mətbuat Şurasının sədri Rövşən Hüseynov, Naxçıvan Dövlət Universitetinin müəllimi, dosent İman Cəfərli, Naxçıvan Dövlət Televiziyasının əməkdaşlarından Ruhiyyə Rəsulova və Şölə Əliyeva çıxış edərək Naxçıvanın turizm potensialının tanıdılmasında medianın rolundan danışıb, bu sahədə əlaqələrin genişləndirilməsi üçün təkliflər səsləndiriblər.

**"Şərq qapısı"**

*1 iyun Uşaqları Beynəlxalq Müdafiə Günüdür*

# Uşaqlar mənsub olduğu xalqın gələcəyidir

***Dünyanın əksər ölkələrində hər il iyun ayının 1-i Uşaqları Beynəlxalq Müdafiə Günü kimi qeyd olunur.***

Hər bir xalqın ən böyük sərvəti uşaqlardır. Ailə sahibi olmaq, layiqli övlad yetişdirmək, gələcəklə bağlı bütün arzu-niyyətləri uşağa həsr etmək, uşaqları sevmək və qorumaq hər bir azərbaycanlının daxilindən qaynaqlanan təbii, nəcib arzudur.

Ölkəmizdə uşaqlara diqqət və qayğının əsas istiqamət kimi müəyyənləşməsi ulu öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli lider ölkəmizə rəhbərlik etdiyi dövrlərdə uşaqlara xüsusi qayğı göstərərək onların gələcək həyat yollarının düzgün istiqamətləndirilməsi naminə mühüm qərarlar qəbul etmişdir. Ötən əsrin 70-80-ci illərində gənc nəslin nümayəndələrinin yaxşı təhsil alması və dünyagörüşlərinin formalaşması məqsədilə ölkəmizin bütün bölgələrində məktəb binaları, məktəbdənkənar müəssisələr, istirahət guşələri, mədəniyyət evləri, musiqi məktəbləri tikilərək istifadəyə verilmişdir.

***"Uşaqlar bizim gələcəyimizdir. Gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, böyüdəcəyiksə, ölkəmizin, millətimizin, dövlətimizin gələcəyi bundan asılı olacaqdır"***, – deyən ulu öndər Heydər Əliyev uşaqların hüquqlarının qorunmasını daim diqqətdə saxlamışdır. Ölkəmizdə dövlət uşaq siyasətinin hüquqi əsasları formalaşdırılmış, zəngin qanunvericilik bazası yaradılmışdır. Azərbaycan Birləşmiş Millətlər Təşkilatının "Uşaq hüquqları haqqında" Konvensiyasına qoşulmuş və "Uşaq hüquqları haqqında" Bəyannaməsini qəbul etmişdir. Həmçinin 1998-ci il mayın 19-da Azərbaycan Respublikasının "Uşaq hüquqları haqqında" və 1999-cu il iyunun 22-də "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" qanunları qəbul edilmiş, bu sahədə dövlət siyasətinin əsas prinsipləri müəyyən edilmişdir.

Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş, bu gün isə ölkə Prezidenti cənab İlham Əliyevin uğurla davam etdirdiyi uşaqlara qayğı artıq milli strategiya kimi formalaşmışdır. Son illər uşaqların sağlamlıqlarının möhkəmləndirilməsi, onların müasir tələblər səviyyəsində təlim-tərbiyəsinin daha da yüksəldilməsi üçün lazımi şərait yaradılmışdır. Davamlı olaraq uşaq hüquqları ilə bağlı qanunvericilik və normativ-hüquqi aktlar təkmilləşdirilmiş, uşaq hüquqlarının müdafiəsi, uşaqların normal formalaşması, sağlam böyüməsinə yönəldilmiş dövlət proqramları qəbul edilmişdir. Uşaqlara yüksək diqqət və qayğı ilə yanaşan Azərbaycan Prezidenti demişdir: ***"Uşaqlar cəmiyyətimizin sabahıdır. Onların qayğısız böyüməsi, yüksək standartlara cavab verən təlim-tərbiyə və tibbi xidmətlərlə təmin edilməsi, əlverişli sosial mühitdə fiziki və mənəvi baxımdan sağlam yetişməsi, habelə öz istedadlarını nümayiş etdirmələri üçün zəruri şəraitin yaradılması bizim əsas məqsədlərimizdəndir. Uşaqlarımızın hərtərəfli şəxsiyyət və ölkəmizin layiqli vətəndaşı olaraq formalaşmaları müstəqil Azərbaycan Respublikasının dövlət uşaq siyasətinin aparıcı istiqamətini təşkil edir".***

Muxtar respublikada da uşaqlar dövlət qayğısı ilə əhatə edilir, uşaq hüquqlarının müdafiəsi uğurla həyata keçirilir. Uşaqlara göstərilən tibbi xidmətin keyfiyyətinin artırılması, uşaqlar arasında xəstəliklərin profilaktikası, uşaq ölümü hallarının minimuma endirilməsi, yüksək səviyyəli ümumi orta təhsilin təmin edilməsi bu sahədə görülən işlərdəndir. Məktəbəqədəryaşlı uşaqların intellektual, fiziki və psixoloji inkişafının, onların şəxsiyyətinin hərtərəfli formalaşmasının və məktəbə hazırlanmasının təmin edilməsi, uşaqların yaradıcılıq mühitində böyüməsi və idmanla məşğul olması üçün zəruri şəraitin yaradılması prioritet istiqamətlər sırasındadır. Muxtar respublika əhalisinin 35,8 faizi və ya 160 min 793 nəfəri uşaqlardır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun qayğısı ilə son illər muxtar respublikada 200-ə yaxın ümumtəhsil məktəbi, 26 uşaq musiqi məktəbi, 21 məktəbəqədər, 14 məktəbdənkənar təhsil müəssisəsi, 8 orta ixtisas və peşə məktəbi tikilərək və ya yenidən qurularaq istifadəyə verilmiş, maddi-texniki baza gücləndirilmişdir. Bu gün muxtar respublikanın ümumtəhsil məktəblərində 600-dən çox elektron lövhə quraşdırılmış, hər 12 şagird bir kompüterlə təmin olunmuşdur. İstifadədə olan kompüterlərin 88 faizi internetə qoşulmuşdur. Yaradılan şəraitin bəhrəsidir ki, ötən il ümumtəhsil məktəblərini bitirmiş şagirdlərdən 1538-i ali təhsil müəssisələrinə, 566-sı orta ixtisas təhsili müəssisələrinə daxil olmuş, ali məktəblərə qəbul olanların 338-i 500-700 arasında bal toplamışdır.

Muxtar respublikada uşaqların sağlamlığının qorunması istiqamətində həyata keçirilən tədbirlər nəticəsində ana və uşaqlara tibbi xidmətin keyfiyyəti və əhatəliyi artırılmışdır. Həmçinin uşaqların sağlamlığının, fiziki inkişafının təmin olunması üçün ciddi tədbirlər görülmüş, son illər olimpiya-idman kompleksləri, üzgüçülük və şahmat mərkəzləri, uşaq-gənclər idman məktəbləri, eləcə də stadionlar, idman zalları və sadə idman qurğuları, ümumilikdə, 49 idman obyekti istifadəyə verilmiş, ümumtəhsil məktəbləri ən müasir standartlara cavab verən idman zalları ilə təmin olunmuşdur. Bu da uşaqların idmana marağını artırmışdır.







Uşaqların istedadlarının üzə çıxarılması, intellektual və mənəvi inkişafı, asudə vaxtının və tərbiyəsinin düzgün təşkili, peşə məktəblərinə cəlbi, cəmiyyətin ictimai-mədəni həyatındakı iştirakını təmin etmək məqsədilə də mühüm tədbirlər həyata keçirilir. Muxtar respublikada fəaliyyət göstərən M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrı, Naxçıvan Dövlət Uşaq Teatrı, Uşaq Filarmoniyası, Uşaq Kitabxanası kimi mədəniyyət ocaqları, Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzi, Naxçıvan Muxtar Respublikası Estetik Tərbiyə Mərkəzi, şahmat məktəbləri və onlarla digər məktəbdənkənar tərbiyə müəssisələri bu baxımdan mühüm əhəmiyyət daşıyır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında gənc istedadlara dövlət qayğısının artırılması haqqında" 2012-ci il 31 yanvar tarixli Fərmanına uyğun olaraq "Gənc istedadların "Qızıl kitabı"nın yaradılması, 8 istedadlı uşağın adının bu kitaba yazılması və onlara xüsusi təqaüdlərin verilməsi istedadlı uşaqlara göstərilən qayğının daha bir ifadəsidir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2012-ci il 24 may tarixli Fərmanı ilə "Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası" təsdiq edilmiş, uşaq hüquqlarının müdafiəsi üçün dövlət qurumları arasında koordinasiya və nəzarət sistemi təkmilləşdirilmiş, monitorinq qrupu yaradılmışdır. Uşaqların qanunvericiliklə müəyyən edilmiş hüquq və mənafelərinin qorunması, uşaq hüquqlarının təmin edilməsi üçün əlverişli mühitin yaradılması və uşaq hüquqlarının pozulması hallarının qarşısının alınması məqsədilə cari ildə 5 uşaq müəssisəsində monitorinqlər aparılmışdır. Bundan əlavə, Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankı təşkil edilmiş, 11 mindən artıq uşaq haqqında fərdi məlumatlar banka daxil edilmişdir.

Sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə inteqrasiyası, onların təhsili və reabilitasiyası da səmərəli təşkil edilir. Muxtar respublikada 2024 sağlamlıq imkanları məhdud uşaq vardır. Ümumtəhsil məktəblərində sağlamlıq imkanları məhdud olan 854 uşaq təhsil alır. Onların cəmiyyətə inteqrasiyasını möhkəmləndirmək, məsafədən (distant) təhsilin əhatə dairəsini genişləndirmək, sosial reabilitasiyada müasir üsulları tətbiq etmək, müasir informasiya texnologiyalarından istifadə imkanlarını artırmaq, təhsili ilə bağlı müvafiq pedaqoji kadrları hazırlamaq məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı" qəbul edilmişdir. Təkcə cari ildə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən 600-dən artıq sağlamlıq imkanları məhdud uşağın valideynləri ilə əlaqə yaradılaraq maarifləndirici söhbətlər aparılmış, bu uşaqlardan 26-sı məktəbəqədər və məktəbdənkənar təhsil, müalicə və reabilitasiya müəssisələrinə yönləndirilmişdir.

Xüsusi qayğıya ehtiyacı olan uşaqların bir qrupu da valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş, eləcə də aztəminatlı ailələrin uşaqlarıdır. Humanist və xeyirxahlıq prinsiplərinin dövlət uşaq siyasətində mühüm yer tutduğu muxtar respublikada ailələrdə himayə və qəyyumluqda yaşayan uşaqlara, həmçinin aztəminatlı ailələrin uşaqlarına, ümumilikdə, 125 uşağa geyim dəstləri və dərs ləvazimatları verilmiş, onların tarixi-memarlıq abidələri və muzeylərlə tanışlığı, Ağbulaq İstirahət Mərkəzinə gəzintiləri təşkil olunmuşdur.

Uşaqların vətənpərvərlik ruhunda böyüməsində, milli dəyərlərimizi mənimsəməsində və dünyagörüşlərinin formalaşmasında uşaq ədəbiyyatının mütaliəsi mühüm əhəmiyyət kəsb edir. Buna görə də muxtar respublikada müasir ədəbiyyat bazasına malik olan elektron kitabxanalar istifadəyə verilir, uşaqlar üçün kitablar nəşr olunur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin himayəsi ilə "Uşaqlar və Günəş" almanaxı, "Gəncliyimiz – Gələcəyimiz", "Təmsillər", "Şeir və hekayələr", "Poema və pyeslər", "Naxçıvan bəstəkarlarının uşaq mahnıları" kitablarının nəşr olunması, "Naxçıvan" jurnalının bir nömrəsinin uşaqların yaradıcılığına həsr olunması bu sahəyə ayrılan diqqətin bariz nümunəsidir.

Muxtar respublikada uşaqların tərbiyəsində milli-mədəni və ümumbəşəri dəyərlər, adət-ənənələr, tolerantlıq, həmrəylik ideyalarına geniş yer verilir. Bu istiqamətdə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən uşaqlara milli dəyərlərin aşılanması, onların zərərli vərdişlərdən uzaqlaşdırılması, mənəviyyatlarına xələl gətirəcək ünsürlərdən müdafiəsi və hüquqlarının qorunması məqsədilə tədbirlər görülür, kütləvi informasiya vasitələrində maarifləndirici çıxışlar edilir.

Muxtar respublikada həyata keçirilən tədbirlər uşaqların firavan həyatının, təlim-tərbiyəsinin, fiziki-mənəvi sağlamlığının müdafiəsinə yönəlmişdir. Bu sahədə fəaliyyət bundan sonra da davam etdiriləcək, qarşıya qoyulan vəzifələr icra olunacaqdır.

**Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti**

# 1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə tədbirlər keçirilib

*1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, Əmək və Əhalinin Sosial Müdafiəsi, Təhsil və Səhiyyə nazirliklərinin birgə təşkilatçılığı ilə Naxçıvan şəhərindəki Körpələr Evi və Ailələrə Dəstək Mərkəzində tədbir keçirilib.*

Mərkəzin və Gözdən Əlil Uşaqlar üçün Xüsusi İbtidai Məktəbin sağlamlıq imkanları məhdud uşaqlarının iştirakı ilə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov, təhsil naziri Məmməd Qəribov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova, Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin müavini Samrat Gəncəyeva və mərkəzin baş həkimi Rəsmiyyə Xasayeva uşaqları əlamətdar gün münasibətilə təbrik edib, muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə inteqrasiya olunması istiqamətində görülən işlərdən, həyata keçirilən tədbirlərdən danışıblar.

Bildirilib ki, muxtar respublikamızda uşaqların yüksək qayğı ilə əhatə olunması, onların əlverişli mənəvi və sosial mühitdə böyüməsi üçün zəruri şəraitin yaradılması, layiqli vətəndaş kimi formalaşması dövlət uşaq siyasətinin prioritet istiqamətlərindən biridir. Sosial qayğıya ehtiyacı olan sağlamlıq imkanları məhdud uşaqların təhsilinin, reabilitasiyasının səmərəli təşkili təmin edilir. Bu qəbildən olan uşaqların cəmiyyətə fəal inteqrasiyası, reabilitasiyası üçün yaradılan şərait dövlətimizin uşaqlara göstərdiyi diqqət və qayğının bariz nümunəsidir.

Çıxışlardan sonra uşaqlara hədiyyələr təqdim edilib.

Çay süfrəsi arxasında davam etdirilən tədbirdə Məhəmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrı aktyorlarının ifasında "Qırmızı papaq" tamaşasından səhnəciklər təqdim olunub.

* * *

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, Əmək və Əhalinin Sosial Müdafiəsi və Təhsil nazirliklərinin təşkilatçılığı ilə daha bir tədbir Ordubad şəhərindəki Məhəmməd Füzuli adına tam orta internat məktəbində keçirilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini Aytən Məmmədova, Naxçıvan Muxtar Respublikası təhsil nazirinin müavini Əli Vəliyev, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin aparat rəhbəri Əziz Hümbətov və Ordubad Rayon İcra Hakimiyyəti başçısının müavini Fərqanə Hüseynli çıxış edərək hər iki valideynini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş, sağlamlıq imkanları məhdud uşaqlara və aztəminatlı ailələrin uşaqlarına göstərilən dövlət qayğısından bəhs ediblər.

Məktəbin direktoru Musa Ağayev xüsusi qayğıya ehtiyacı olan uşaqlara göstərilən diqqətə görə minnətdarlığını bildirib.

İnternat məktəbində təhsil alan hər iki valideynini itirmiş və valideyn himayəsindən məhrum olmuş, sağlamlıq imkanları məhdud və aztəminatlı ailələrdən olan 13 uşağa geyim dəstləri verilib.

* * *

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin kollektivləri 1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü ilə əlaqədar könüllü qanvermə aksiyası keçiriblər.

Aksiyada əvvəlcə donorlardan arterial təzyiq, hepatit, QİÇS və digər yoluxucu xəstəliklərin müəyyən edilməsi üçün qan analizləri götürülərək testdən keçirilib, qan qrupları təyin edilib. 26 nəfər könüllü donordan götürülən 6 litr qanın qrupları müəyyənləşdirilərək birli, ikili və üçlü torbalarda mərkəzin qan bankına təhvil verilib. Hazırda qan bankının soyuducusunda xəstələrə köçürülmək üçün kifayət qədər qan ehtiyatı saxlanılır. Tələbatdan artıq donor qanından müvafiq qan preparatlarının hazırlanmasında istifadə edilir.



Qeyd edək ki, Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində qanvermə aksiyasının keçirilməsində əsas məqsəd hemofiliya və talassemiyadan əziyyət çəkən uşaqlara tibbi yardımın keyfiyyətinin artırılması, faktor preparatları ilə müalicənin təşkil edilməsi və digər tədbirlərin görülməsindən ibarətdir.

**Gülcamal TAHİROVA**

*Valideynlərin hər ikisi, həm ana, həm də ata öz xoşbəxtliyini, ilk növbədə, dünyaya gələcək övladında görür. Uşağın dünyaya gəlməsi ailə üçün ən böyük sevincdir. Təbii ki, hər bir valideyn öz uşağını sağlam və fiziki cəhətdən möhkəm görmək istəyir. Təəssüflə qeyd etməliyik ki, bu gün dünyaya göz açan uşaqların bəzilərində müəyyən xəstəliklər olur. Son illər muxtar respublikamızda uşaqların fiziki, mənəvi, psixoloji cəhətdən sağlam böyüməsi, cəmiyyətə faydalı şəxsiyyət kimi formalaşması istiqamətində çox mühüm tədbirlər reallaşdırılır. 2007-ci ildə fəaliyyətə başlayan Uşaq Bərpa Mərkəzi də məhz bu xeyirxah və şərəfli missiyanı həyata keçirir. Mərkəzdə sağlamlıq imkanları məhdud uşaqların müayinə və müalicə almaları üçün hər cür şərait var.*



## Sağlamlıq imkanları məhdud uşaqlara hərtərəfli qayğı göstərilir





Ötən günlərdə həmin mərkəzdə olduq və burada müalicə alan uşaqlar üçün yaradılmış şəraitlə yaxından maraqlandıq. Mərkəzin baş həkimi Şəhla Əhmədova bizimlə söhbətində bildirdi ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı" təsdiq olunub. Naxçıvan Uşaq Bərpa Mərkəzi də öz fəaliyyət istiqamətini məhz adıçəkilən dövlət proqramının əsasında qurub. Hazırda mərkəzdə, əsasən, nevroloji xəstəliklərdən əziyyət çəkən 12 uşaq müalicə kursu keçir. Mərkəzə müraciət edən hər bir uşaq əvvəlcə ətraflı müayinə olunur, daha sonra həkim-fizioterapevt tərəfindən onun üçün tərtib edilmiş fərdi tibbi reabilitasiya kitabçasında qeydiyyatı aparılır və gündəlik olaraq təyin olunmuş prosedurların yerinə yetirilməsinə həkim tərəfindən ciddi nəzarət edilir. Mərkəzdə müasir tibbi avadanlıqlarla təchiz edilmiş müxtəlif tezlikli cərəyanlar, infraqırmızı lampa, ultrabənövşəyi, mikrodalğa ilə müalicə, manual masaj, parafin aplikasiyası otaqları, su müalicəsi, müalicəvi bədən tərbiyəsi zalı fəaliyyət göstərir. Bunlardan əlavə, müalicə alan uşaqların asudə vaxtlarını səmərəli keçirmələri üçün erqoterapiya otağı da yaradılıb, autizm sindromundan əziyyət çəkən, eyni zamanda diqqət dağınıqlığı olan hiperaktiv uşaqların müalicəsində əvəzsiz rola malik multisensor terapiya müalicə otağı istifadəyə verilib. Mərkəzin müalicəvi bədən tərbiyəsi zalına yeni avadanlıqlar – yeriş imitatoru, unikreslo, artromot, aşil tendon gərici verilib ki, bu da uşaqlara göstərilən xidmətin keyfiyyətini xeyli yüksəldib. Mərkəzdə həftə ərzində müəyyən idman növlərində məşqlər keçirilir. Hər həftənin 1-ci və 4-cü günləri bədii gimnastika, 2-ci və 5-ci günlər stolüstü tennis, 3-cü gün isə boccia idman növü üzrə məşqlər aparılır.

Şəhla Əhmədova onu da bildirdi ki, mərkəzdə müalicə alan istedadlı uşaqların bilik və bacarıqlarının üzə çıxarılması üçün mərkəz tərəfindən müxtəlif tədbirlər görülür. Cari ilin mart ayının 16-da Naxçıvan Regional İnformasiya Mərkəzində muxtar respublikanın bütün bölgələrindən olan sağlamlıq imkanları məhdud insanların əl işləri əsasında səməni müsabiqəsi keçirilib. Müsabiqədə Uşaq Bərpa Mərkəzinin uşaqları da fəal iştirak edib. Mərkəzdə müalicə alan Röya Səfərzadə 2-ci yerə layiq görülüb. 1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü ilə bağlı Naxçıvan Dövlət Uşaq Teatrı ilə birgə mərkəzdə müalicə alan uşaqların rol aldığı Bayram İsgəndərlinin "Özgəyə quyu qazan" tamaşası uğurla nümayiş olunub. Eyni zamanda mərkəzdə müalicə kursu qəbul edən uşaqların mütəmadi olaraq Naxçıvan şəhərində keçirilən şeir müsabiqələrində, əl işləri və rəsm əsərlərindən ibarət sərgilərdə iştirakları təmin edilir. Naxçıvan şəhərindəki muzeylərə ənənəvi gəzintilər təşkil edilir, onlar üçün filmlər nümayiş olunur. Bütün bunlarla yanaşı, mərkəzdə müalicə kursu qəbul edən uşaqlardan bir qrupunun hər il yay tətili günlərində Ağbulaq İstirahət Mərkəzində istirahətləri təmin olunur. Uşaqların təhsilə cəlbi istiqamətində də mühüm işlər görülür. Bu haqda mərkəz tərəfindən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə məlumat verilir və həmin uşaqlar distant təhsilə cəlb edilirlər. Həmçinin mərkəzə müraciət edən vətəndaşlardan ehtiyacı olanların Naxçıvan Şəhər Körpələr Evi və Ailələrə Dəstək Mərkəzinə, Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinə göndərilmələri də təmin edilir. Bununla yanaşı, onlar haqqında məlumat hər ayın sonunda Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə təqdim olunur. Mərkəzdə müalicə kursu qəbul edən uşaqlardan bir qrupu əlavə müalicə almaq üçün Türkiyənin Dənizli şəhərindəki Nobel Tibb Mərkəzinə göndərilir.

Mərkəzdə olduğumuz müddətdə müalicə alan uşaqların valideynləri ilə də həmsöhbət olduq. 6 yaşlı Nuray Mustafayevanın anası Səbinə xanım bizimlə söhbətində mərkəzin imkanlarından və burada yaradılan şəraitdən razılıqla danışdı: "Hər bir valideyn kimi, mənim də istəyim uşağımı sağlam görməkdir. Lakin tale elə gətirib ki, bu arzum baş tutmayıb. İlk vaxtlar mən də, yoldaşım da çox narahatçılıq keçirirdik. Sonra belə bir mərkəzin fəaliyyət göstərdiyini öyrəndik. Gəlib bu gözəl şəraiti, mehriban münasibəti gördükdə çox sevindik. Mərkəzə uşağımızı həvalə edəndən sonra onda xeyli müsbət dəyişikliklər hiss edirik. Belə gözəl şəraiti yaradan hər kəsə ailəmiz adından minnətdarlığımızı bildiririk".

Digər bir valideyn isə 11 yaşlı Ayrım Nağıyevin atası Elnur Nağıyevdir. O da, öz növbəsində, mərkəz haqqında məmnunluqla danışdı: "Bəzən elə olur ki, həyat biz insanları sınağa çəkir. Mən də elə insanlardan biriyəm. Oğlum dünyaya gələndə çox sevindim. Ancaq xəstə olduğunu öyrənəndə mən də, yoldaşım da çox narahat olduq, həyatdan əlimizi üzdük. Ta ki bu mərkəzə gəlib burada yaradılan şəraitlə yaxından tanış olanadək. Yeri gəlmişkən deyim ki, bu ünvanı "Şərq qapısı"qəzetində dərc olunan məqalədən öyrəndik. O an içimizdə ümid qığılcımları parladı. Həmin qəzet nömrəsini bu günədək saxlayırıq. Vaxt itirmədən oğlumuzu bu mərkəzə gətirdik. Həkimlərin səmimi söhbəti, oğlumuza göstərilən mehriban münasibət bizi çox sevindirdi. İndi səbirsizliklə onun müalicə alaraq sağalmasını gözləyirik. Yaradılan şəraitə görə dövlətimizə, oğlumuzu müalicə edən hər kəsə dərin minnətdarlığımızı bildiririk".

*Bu gün mərkəzdə müalicə alan sağlamlıq imkanları məhdud uşaqlara göstərilən xidmətin və yaradılan şəraitin təməlində böyük dövlət qayğısı dayanır. Bu baxımdan Uşaq Bərpa Mərkəzi valideynlərin ümid yerinə çevrilib.*

**Nail ƏSGƏROV**

## Şərq Döyüşü Sənəti Federasiyasında görüş keçirilmişdir

Mayın 31-də Şərq Döyüşü Sənəti Federasiyasının sədri Azad Cabbarov federasiyanın üzvləri və məşqçi-müəllimləri ilə görüşmüşdür.

Görüşdə federasiyanın 2017-ci il üçün iş planı müzakirə olunmuş, qarşıda duran vəzifələr müəyyənləşdirilmişdir. Əsasən, federasiyanın işinin gücləndirilməsi, yeniyetmə və gənclər arasında idmanın bu növlərinin təbliği, kütləviləşməsi başlıca vəzifə kimi qarşıya qoyulmuşdur.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Şərq Döyüşü Sənəti Federasiyasının konfransı keçirilmişdir. Konfransda gündəlikdə duran məsələlər və federasiyaya yeni sədrin seçilməsi müzakirə olunmuşdur. Sonda Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov yekdilliklə Naxçıvan Muxtar Respublikası Şərq Döyüşü Sənəti Federasiyasına sədr seçilmişdir.

**"Şərq qapısı"**

## Basketbol turnirinə yekun vurulub



Ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş 2001-2003-cü illər təvəllüdlü idmançılar arasında keçirilən basketbol üzrə "Heydər Əliyev kuboku" uğrunda muxtar respublika turnirinə yekun vurulub. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Basketbol Federasiyasının birgə təşkil etdiyi turnirdə 4 komanda dairəvi sistem üzrə mübarizə aparıb.

Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində keçirilən turnirin son oyunları daha gərgin mübarizə şəraitində yekunlaşıb. Sonuncu gün "Naxçıvan" komandasının üzvləri culfalı həmkarları ilə üz-üzə gəlib. Səbəti daha dəqiq nişan alan Naxçıvan basketbolçuları xal fərqinə görə "Culfa" komandasını qabaqlayıb və turnirin qalibi olub. "Babək" komandası isə üçüncülüklə kifayətlənib.

Sonda qaliblər diplom, kubok və hədiyyələrlə mükafatlandırılıblar. Mükafatları Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov və Basketbol Federasiyasının sədri Mahir Əliyev təqdim ediblər.

**Ceyhun MƏMMƏDOV**

## *"Gənclər ətraf mühitin çirklənməsinə yox deyir"* devizi altında silsilə aksiyalara start verilib

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun təşkilatçılığı ilə 5 iyun – Ümumdünya Ətraf Mühitin Mühafizəsi Günü münasibətilə "Gənclər ətraf mühitin çirklənməsinə yox deyir" devizi altında aksiyalara start verilib.***

Ali Məclisin Sədri yanında Gənclər Fondu, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Ekologiya və Təbii Sərvətlər, Təhsil nazirlikləri və Yeni Azərbaycan Partiyası aid rayon təşkilatlarının Heydər Əliyev adına Gənclər birlikləri tərəfindən keçirilən aksiyalarda gənclərin ekoloji biliklərinin zənginləşdirilməsi, onlarda təbiətə məhəbbət hisslərinin aşılanması məqsədilə ekoturizm marşrutları üzrə gəzintilər təşkil olunur, təmizlik tədbirləri görülür.

Mayın 30-da keçirilən ilk belə tədbirə Şahbuz və Babək rayonlarının yeniyetmə və gəncləri qatılıblar. Gənclər ilk olaraq Batabat yaylağının fauna və flora aləmi, təbiət abidələri ilə tanış olublar. Tədbir iştirakçıları ərazinin təbiət gözəllikləri olan Zorbulaq, Üzən ada kimi təbiət əraziləri haqqında məlumatlandırılıblar. Aksiya iştirakçıları ərazidə yaşıllıqlara qulluq edib, təmizlik tədbirləri görüblər.

Gənclər daha sonra Şahbuz Dövlət Təbiət Qoruğunun fauna və flora muzeyində sərgilənən eksponatlarla tanış olublar, ərazidə yaşayan nadir heyvan və bitki növləri haqqında məlumat əldə ediblər.

Mayın 31-də isə Ordubad və Culfa rayonları gənclərinin Ordubad Milli Parkına maarifləndirici ekskursiyası təşkil edilib. Burada gənclərə Milli Parkın yaradılması və fəaliyyəti, mövcud canlılar aləmi haqqında məlumat verilib. Hər iki tədbirdə təşkilatçılar tərəfindən hazırlanmış məlumat bukletləri gənclərə paylanılıb.

Bildirilib ki, bu gün bütün planetdə əsas problemlərdən biri olan ekoloji çirklənmə, ekoloji tarazlığın pozulması, ətraf mühitə insan amilinin ciddi təsiri hər kəsi düşündürür. Bunun qarşısının alınması üçün gələcəyin təminatçısı kimi təbiətə sahib çıxmalı, ətraf mühit zərərli tullantılardan, çirklənmələrdən mühafizə edilməlidir.

Qeyd edək ki, aksiyalar iyun ayının 5-nə qədər hər gün davam etdiriləcək. Gənclərin iştirakı ilə "Hərəmiz bir ağac əkək", "Yaşıllıqlara qulluq", "Ətraf mühit və biz", "Ətraf mühiti necə qoruyuruq" devizləri altında aksiya və tədbirlər keçiriləcəkdir.

Son 20 ildən artıq müddətdə muxtar respublikamızda həyata keçirilən abadlıq, yenidənqurma, inkişaf və tərəqqi prosesi geniş vüsət alıb. İqtisadiyyat və sənayenin sürətli inkişafı ilə yanaşı, muxtar respublikada ekologiyanın qorunması, ekoloji mühitin təmizliyinin təmin edilməsi turistlərin, xarici qonaqların cəlbi üçün ən təsirli amillərdən biridir. Təmiz mühit və saf havanın əsas təminatçısı isə mövcud olan meşələr və salınan yeni yaşıllıq zolaqlarıdır. Bu məqsədlə keçirilən aksiyalar gənclərin bu məsələlərə daha çox diqqət yetirmələrinə şərait yaradır.

**Xəbərlər şöbəsi**

### Bildiriş

"Nuh Travel" Məhdud Məsuliyyətli Cəmiyyətinin (VÖEN-0200874811) hüquqi adı dəyişdirilərək "Qafqaz Turizm" Məhdud Məsuliyyətli Cəmiyyətinə çevrilmişdir.

### İtmişdir

Naxçıvan şəhəri, 20 Yanvar küçəsi, ev 1/13A-da yaşamış Rzayev Məmmədhəsən Əli oğlunun adına olan 2631 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Ədəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 451